# MasterCem® ES 2136

**Sementin erkən və yekun möhkəmliyini artırmaq, qurğunun üyütmə enerjisini azaltmaq, eləcə də sement dəyirmanının istehsal qabiliyyətini artırmaq məqsədilə hazırlanmış xloridsiz sement qatqısı.**

## MATERİALIN TƏQDİMATI

**MasterCem® ES 2136** – sementin iş qabiliyyətini artırmaq məqsədilə hazırlanmış maye formasında olan, istifadəyə hazır sement qatqısıdır. Üyüdülmə prosesində üyüdücü vasitə və sement ötürülməsi zamanı axına yardımçı vasitə qismində çıxış etməsinə əlavə olaraq, **MasterCem® ES 2136** özünün kimyəvi komponentlərinin fəaliyyəti sayəsində spesifik sement xüsusiyyətlərini yaxşılaşdırır. Bu komponentlər klinker parametrlərinin dəyişdirilməsində və onların hidravlik göstəricilərinin təkmilləşdirilməsində iştirak edirlər.

**MasterCem® ES 2136** seriyasından olan məhsullar, xüsusi olaraq sementin erkən və yekun möhkəmliyini artırmaq üçün hazırlanmışdır. Bu üstünlüklərdən həm məhsulun ən yüksək iş qabiliyyətinin əldə edilməsində, həm də iş qabiliyyəti səviyyəsini saxlamaqla sementin optimallaşdırılmasında istifadə oluna bilər. Qatqısız vəziyyətə görə tipik üyütmə effektivliyinin artımı 10-25% aralığında, sınaq nümunəsinə əsasən erkən möhkəmliyin artımı 1-2 gün ərzində +10-25%, 28 gün ərzində möhkəmlik artımı +5-15% olmuşdur. Bununla yanaşı, məhsulun iş qabiliyyəti üyütmə avadanlığının xüsusiyyətlərindən, iş prosesi şəraitindən, xammalın xüsusiyyətlərindən və sementin növündən asılıdır. Sement qatqısından ən yaxşı faydanı əldə etmək üçün üyütmə və ayırma prosesləri parametrlərinin uyğunlaşdırılması zəruri ola bilər.

**MasterCem® ES 2136** daşınma xətti içərisindəki sementin axış yönünü müəyyənləşdirir və sementin ötürülmə qabiliyyətinə və saxlama zamanı bərkimənin azalmasına müsbət təsir göstərir.

## STANDARTLAR

**MasterCem® ES 2136**, Avropa sement standartının (EN 197.1) tələblərinə cavab verir.

## TƏTBİQ SAHƏLƏRİ

**MasterCem® ES 2136**, aşağıda qeyd olunmuş qurğulardakı sement üyütmə prosesində tətbiq olunmaq üçün hazırlanır :

- Kürə şəkilli dəyirmanlarda (qapalı və açıq dövrəli);
- Dik dəyirmanlarda;
- Digər sement üyütmə sistemlərində.

## ÜSTÜNLÜKLƏRİ

**MasterCem® ES 2136**, sement istehsalçıları üçün aşağıdakı üstünlükləri təklif edir:

- **Xərclərin azalması:** qurğunun daha aşağı üyütmə enerjisi (kVts/t), eləcə də sement xüsusiyyətlərini saxlamaqla sementin narınlığının və strukturunun optimallaşdırılması sayəsində.

---

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**“Master Builders Solutions Azerbaijan” MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **“Master Builders Solutions Azerbaijan” MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020


**“Master Builders Solutions Azerbaijan” MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az


A brand of MBCC GROUP

# MasterCem® ES 2136

**Sementin erkən və yekun möhkəmliyini artırmaq, qurğunun üyütmə enerjisini azaltmaq, eləcə də sement dəyirmanının istehsal qabiliyyətini artırmaq məqsədilə hazırlanmış xloridsiz sement qatqısı.**

- **Həcm genişlənməsi:** dəyirmanın daha yüksək istehsal qabiliyyəti və optimallaşdırılmış sement tərkibi sayəsində.
- **Dayanıqlılıq:** Aşağı klinker qatılım miqdarı və spesifik karbon dioksid (CO2).
- **Məhsul çeşidi:** yekun tətbiq üzrə sementin təkmilləşdirilmiş iş qabilliyyəti və inkişaf etdirilmiş xüsusiyyətləri sayəsində.
- **Sement daşınmasının təkmilləşdirilməsi:** zavod və paylayıcı logistika müəssisələri vasitəsilə daha sürətli sement daşınması sayəsində. Zavodda dayanmaların azalması və siloslarda optimal saxlanma. Tətbiq zamanı çox az tozun əmələ gəlməsi və bu səbəbdən münasib iş mühiti.

## TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| Rəngi | Qəhvəyi |
| Sıxlığı | 1,08-1,12 kq/litr |
| pH | 9.0-11.0 |

*Qeyd olunmuş gostəricilər +20° C və 50% nisbi rütubət muhitində qəbul olunmuşdur.*

## SƏRFİYYAT

**MasterCem® ES 2136** doza ilə ölçülə və ya birbaşa dəyirmana vurula bilər. Tövsiyə olunan doza nisbəti, 1 ton sement üçün 300 və 600 qram aralığındadır (kütlənin 0.03%-0.06%-i). Xüsusi hallarda, digər doza nisbətləri tələb oluna bilər. Optimal doza zavod sınaqlarında müəyyən olunmalıdır.

Daha ətraflı məlumat almaq üçün **Master Builders Solutions Azerbaijan** şirkətinin texniki xidmətinə müraciət olunmalıdır.

Məhsulun maksimum performansını əldə etmək üçün, tənzimlənən bir axış nisbəti və müvafiq doza diapazonu kalibrasiya edilmiş dozlajlama avadanlığı məsləhətdir

## UYĞUNLAŞMA

**MasterCem® ES 2136**, bütün sement növləri ilə uyğunlaşır.

## QABLAŞDIRMA

1000 kq-lıq konteyner
Tökmə

## SAXLAMA

**MasterCem® ES 2136** məhsulunun 5°C-dən yüksək temperaturlarda saxlanması tövsiyə olunur. Borular istiliyə qarşı izolyasiya olunmalıdır. İstehsalçının təlimatlarına əsasən əgər məhsul açıq olmayan konteynerlərdə saxlanar-sa, bu halda saxlama müddəti minimum 12 aydır.

---

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır. **“Master Builders Solutions Azerbaijan” MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır. Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **“Master Builders Solutions Azerbaijan” MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**“Master Builders Solutions Azerbaijan” MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

A brand of MBCC GROUP